

# ONUN ADI... ZAQATALA!

## (Zaqatala rayonunda keçirilən I Beynəlxalq fındıq, qoz, şabalıd festivalından reportaj)

*Məzahir ƏHMƏDZADƏ*

**...Əvvəllər də söhbət açmışıq, onun bu özəlliyini xüsusi vurğulamışıq: Zaqatalanın bənzəri yoxdur! Ancaq bir vaxtlar "Bala Tiflis", "Kiçik Paris", "Qızıl güllər diyarı" kimi bənzətmələr də olub. Bütün bu bənzətmələr böyük iddialar kimi görünsə də, ancaq müəyyən oxşarlıqların və təəssüratların uzaq assosiasiyası olaraq da maraq doğurmuşdur. Son dövrlərin Zaqatalası isə məhz özünün urbanik inkişafı və təbiət gözəlliklərinin füsnkarlığı ilə adını bu bənzətmələrsiz də təsdiqləmişdir.**




Bu şəhərin, bu rayonun reallıqlar üzərində özünəməxsus həyatını, modern inkişafını, təbiətlə qovuşuq mükəmməl harmoniyasını, poetik əhvalını görüb duyunca qeyri-adi düşüncələrə varırsan.

Fikirləşirsən ki, postmodernizm təkcə ədəbiyyatda, incəsənətdə deyil, yaşadığımız həyatın özündə də mümkündür.

Həm də bilirsiniz əsl həqiqət, gerçəklik nə zaman daha gözəl və əzəmətli olur? İnsanların həyat tərzi, rifahı yüksəlib sakini olduqları kəndin, şəhərin, qəsəbənin inkişafı ilə qovuşanda. Bəli, bu məqam insanlara həm də qürur bəxş edir. Zaqatala rayonunda da belədir. Gündən-günə daha da gözəlləşən Zaqatala şəhəri, abadlaşan, müasirləşən qəsəbə və kəndlər, inkişafın əsas göstəricilərindən biri olan yeni iş yerlərinin yaranması, məşğulluğun strateji məqsəd daşıması və digər amillər buradakı yüksək əhval-ruhiyyənin əsl səbəbləridir.

Və bütün bunları birləşdirən, nizamlı inkişaf məcrasına yönəldən dövlət qayğısıdır, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasətin nəticələridir. Zəhmətkeş və qədirbilən Zaqatala camaatı rayon rəhbərliyi ilə birlikdə həmişə sevimli prezidentlərinə minnətdar olduqlarını böyük iftixarla dilə gətirirlər. Cənab Prezidentin də Zaqatala və zaqatalalılar haqqında söylədiyi dəyərli fikirlər onları ruhlandırır, yeni-yeni uğurlara səsləyir: "Zaqatala Azərbaycanın çox gözəl guşəsidir. Burada gözəl təbiət, təbii şərait var, gözəl, zəhmətkeş insanlar yaşayırlar...".

Beləcə, əziz oxucu, mən sizi fəsilləri də bir-birindən gözəl olan Zaqatalanda sentyabrın son günlərinin birində keçirilən I Beynəlxaq fındıq, qoz və şabalıd festivalına dəvət edirəm. Əlbəttə, bayram reportajımla, fotolarımla.




...Təbii olaraq hamının üz-gözündə xoş bir təbəssüm, sevinc, iftixar yaşanır. Minlərlə rayon sakini festivala gələn qonaqları Dədə Qorqud meydanında müxtəlif bayram atributları, mahnı, rəqs və şirniyyatlarla qarşılayırlar.

Festivalda ölkəmizdə fəaliyyət göstərən 14-dən çox xarici ölkə səfirliyinin rəhbərləri və təmsilçiləri, nazirlik və digər dövlət qurumlarının rəsmiləri, Milli Məclisin deputatları, eyni zamanda fındıq istehsalçıları və digər iş adamları, qonşu rayonlardan gələn qonaqlar da iştirak edirlər.

Bu bayram təkcə zaqatalalıların deyil, sanki bütövlükdə bölgə əhalisinin bayramıdır. Bu yerlərdəki fındıq bağlarının, burada yetişən dünya şöhrətli meyvələrin həqiqətən oxşarı belə yoxdur. Özəlliklə Zaqatalanın qeyri-adi fındıq bağlarının, bol və dadlı meyvələrinin. Fındıq ən az növü olan meyvələr sırasındadır.



Azərbaycanda da cəmi üç növü məlumdur. Azərbaycan fındığı, xüsusilə Zaqatala fındığı oxşarsız və rəqabətsiz dünyada birincidir, biləsiniz. Elə rayonda ənənəvi və ixrac potensialı yüksək olan sahələrdən biri məhz fındıqçılıqdır.

Cənab Prezidentin tapşırığına əsasən son iki ildə yeni fındıq bağları salınaraq rayonda ümumi fındıq bağlarının sahəsi 18 min hektarı keçmişdir. Keçən il təkcə fındıqçılıqdan götürülən gəlir 100 milyon manatdan çox olmuşdur. Sahənin inkişafına elmi yanaşmanın təmin edilməsi üçün də əməli tədbirlər davam etdirilir.

...Reportajımız davam edir. Dədə Qorqud meydanının yaxınlığındakı Heydər Əliyev parkı da izdihamlıdır. Rəsmilər və festival iştirakçılarının nümayəndələri burada ucalan abidənin qarşısına gül-çiçək dəstələri düzərək ulu öndəri hörmət və məhəbbətlə yad edirlər. Dahi insanın, böyük Azərbaycan oğlunun vətən, xalq və onun gələcəyi haqqında arzu və istəklərinin həqiqətə çevrildiyi günlərdir bu bayramlar, bu şənliklər...

Festivalın mərkəzi tədbirləri üçün Dədə Qorqud meydanı da təsadüfən seçilməyib. Burada müdrik babamız sanki öz qopuzunun qədim səsi, doğma ahəngi ilə yaşanan, paylaşılan bu şölənə bir əbədilik arzulayır.



Festivaldakı bölmələr, guşələr xüsusi bir zövqlə qurulub.

Meyvələrin və qızıl güllərin timsalı geyimlər, müxtəlif əl işləri, fındıqlarla hazırlanmış qeyri-adi görüntülər, əşyalar... xalq yaradıcılığının, ənənələrin mükəmməl fəlsəfəsi, fantaziyası...

...Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə çıxış edir. O, qonaqları və bütün festival iştirakçılarını bayram münasibəti ilə salamlayır. Mübariz Əhmədzadə çıxışında bu gün keçirilən festivalın əsas mənasını, qayəsini xüsusi anlamda vurğulayaraq deyir:




- Azərbaycanımızda həyatımızın elə bir sahəsi yoxdur ki, orada inkişaf, tərəqqi yüksək səviyyədə davam etməsin. Zaqatala rayonu da bu gün respublikamızda sürətlə inkişaf edən bölgələrdəndir. Fındıqçılıq bu rayonun simvollarından biridir. XIX əsrdən başlayaraq Zaqatalada fındıq istehsalı ənənəvi sahələrdən birinə çevrilmiş, 1932-ci ildən burada ilk fındıqçılıq sovxozu yaradılmışdır. Bu sahə üzrə Zaqatalada son illər çox işlər görülüb. Cənab Prezidentimizin rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı layihələr, Dövlət Proqramları da fındıqçılığın inkişafında əhəmiyyətli rol oynayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev rayonumuza 8 dəfə səfər edib. Ölkə Prezidenti keçən ilin avqustunda rayonumuza səfəri zamanı bir sıra açılışlarda iştirak edərkən Zaqatalanın inkişafına xüsusi yanaşdı. Cənab Prezident bu rayonda tütünçülük, baramaçılıq, gülçülük və ayrıca olaraq fındıqçılığın inkişafına dair maraqlı fikirlərini çatdırdı. Ölkə rəhbərinin məhz fındıqçılığın inkişafı istiqamətində verdiyi tapşırıqlar uğurla icra olunur və rayonumuzda fındıq bağları ilbəil artır.



İndi adi bir sentyabr gününün məhz belə bayram düzənində yşanaması da müdrik uzaqgörənliyin, göstərilən qayğı və diqqətin, eləcə də inam və zəhmətsevərliyin təntənəsidir...

...Milli rəqslər, şən mahnılar bir-birini əvəz edir. Festival iştirakçıları müxtəlif guşələrdə fındıqdan hazırlanmış rəsm və əl işləri sərgisi, ən gözəl fındıq xonçası, ən gözəl fındıq geyimi, fındıqla bağlı ən zəngin məlumat lövhələri, şirniyyat məhsulları ilə tanış olur, müxtəlif yarış və müsabiqələrə qoşulurlar. Burada təbii ki, yerli mətbəxin də nümunələrindən dadılır.

Festivalda fındıq yığımında və təmizlənməsində istifadə edilən ən müasir texniki avadanlıqlardan ibarət sərgi də xüsusi maraq doğurur.

Fındıq bağlarına səyahət, fındıq emalı zavodunda istehsal prosesi ilə tanışlıq... Bütün bunlar festivala əlavə rəng qatır, təəssürat zənginliyi yaradır.





Festivalda gördüklərimiz, yaşanan gözəl anlar, görüşlər bir yazıya sığan məsələ deyil.

Gördüklərimizin, eşitdiklərimizin hər biri ayrı bir hekayətdir sanki.

**...Ancaq gün də sona çatmaq üzrədir. Bakıdan dəvət olunmuş incəsənət ustalarının iştirakı ilə düzənlənən konsert isə davam etməkdədir. Bu gözəl payız gününün də qisməti elə budur: təbiətin qızıl dövrü, şənlik, qürur və sevgi...**

# Məşhur Azərbaycanlı filosof:

## "İndi Nitşeye gülərlər..."

(əvvəli 6-cı səhifədə)

**- Eynşteynin belə bir fikri var ki, mən Nisbilik Nəzəriyyəsini Dostoyevskidən öyrəndim. Nəzəri kitablarda rast gəlmədiyiniz elə bir nüans olubmu ki, onu məhz bədii əsərlərdə görəsiniz?**

- Nəzəri kitablar oxumadım. Nəzəri kitabları mühəndislik oxuyanda oxuyurdum, institutda. Riyaziyyat, fizika, mühəndislik kitabları o zaman maraqlı idi mənə. Və pis də oxumurdum. Müəllimlərimdən sağ qalanlar, tələbə yoldaşlarım yalan danışmağa qoymazlar.

Amma sonra fəlsəfə ilə maraqlananda nəzəriyyə iyi gələn fəlsəfi kitabları heç sevmədim. Kantı, Hegeli də sevmədim ona görə. Həndəsə yazırlar elə bil. Zövqsüz gəldi mənə bu cür fəlsəfə. Dərinlik var. Amma bu dərinlik küsdürücü nəzəri formada verilib. Elmə bənzəmək, avtoritetli görünmək həvəsindən qaynaqlandı bu üslub. Antik fəlsəfəyə baxın. Qərb fəlsəfəsinin səhəri ədəbiyyata daha yaxın idi. Sonra bu Aristotelçilik qalib gəldi. Aristoteli də sevmədim eyni səbəbdən. Və sonra Nitşeyə baxın. Yenidən ədəbiyyat formasında gəldi fəlsəfə. Və necə gəldi, tufan yaratdı ağıllarda. Şeir yazırdı Nitşe.

Fəlsəfəni nəzəri elm kimi görənlərə pretenziyam yoxdur. Zövqlər müxtəlifdir. Və fəlsəfənin çoxplanlığı hər cür müxtəlifliyə imkan verir. Amma mənə görə fəlsəfə dərinliklə müalicə etməkdir, loğmanlıqdır. Siyasi, hüquqi, bədii, elmi təfəkkür qidalana bilər fəlsəfədən, amma fəlsəfə ruhaniyyat fenomenidir, mənə görə. Mikrokosmun makrokosm qarşısında duruşu hadisəsidir.

Və fəlsəfə bütün digər sahələri qidalandırdığı kimi, özü də hər şeydən qidalanır. Poeziyadan da, elmi araşdırmalardan da, şahmat oyunundan da, heyvanların davranışlarından da.

**- İstər fəlsəfədə, istər ədəbiyyatda Şərq-Qərb bölgüsü var. Sanki Qərbdən danışan intellektual, Şərqdən danışan bunun əksidir. Sizcə, bu bölgü varmı və varsa, siz bunu necə səciyyələndirirsiniz?**

- Şərq-Qərb bölgüsü var. İki fərqli xarakter, yanaşma olaraq, hər halda bu planetdə belə bir mənzərə yarandı. Şərq təfəkkürü duyğulu, poetik, Qərb təfəkkürü quru, rasional. Birincisi daha çox subyektivliyə, ikincisi, obyektivliyə meyl edən. İndi məsələni elə firladıblar ki, obyektivlik sözünün özü birmənalı yaxşı deməkdir, subyektivlik isə yanlışlığın sinoniminə çevrilib. Adam o sözü işlədəndə ehtiyatlanır. Halbuki, subyektivlik həm də insaniliyi, dərinliyi təmsil edir. Fəlsəfədə subyektivliyi, deyək, intuisiyası inkişaf etməmiş adamın gələcəyi yoxdur. Bəsit əqliyyətçidən başqa bir şey deyil o.

Qərb rasional təfəkkürü böyük nailiyyətlərə gəlib çıxdı. Sosial həyatı nizamladı, texniki cənnət yaratdı, Qərbi dünyanın ağası elədi. Amma içəridəki ruhani boşluğu doldura bilmədi o təfəkkür. Bu üzdən Qərbdə bu gün meditasiya mərkəzləri bunca populyardır və Şərqin ruhani irsinə də maraq daim artmaqdadır.

Şərqi tənqid etmək lazımdır. Mən də edirəm. Amma Şərqi yalnız geriliyin və xurafatın mücəssəməsi kimi təqdim etmək - sadəcə, axmaqlıqdır. Şərqin əsil mahiyətini görməməkdir.

**- "Tanımadığımız Konfutsi" adında kitabınız çap olunub. Daha çox Şərq fəlsəfəsinə marağınız var. Sizi orda əsasən nələr cəlb edib?**

- Konfutsi haqqında yazdığım kitabda Şərq fəlsəfəsini müasir oxucuya, bir növ, tərcümə etməyə çalışdım. Konfutsinin sadə sözlərinin, tələbələri ilə ünsiyyətinin arxasında nə durur, onları göstərmək istədim. Həzz aldım o kitab üzərində işləyərkən.

Konfutsinin əvəzinə hər hansı digər Şərq mistikini də seçə bilərdim. Amma onu seçdim. Çünki oxucu diqqəti ilə çirkləndirilmiş obraz deyildi. Onun vasitəsi ilə Şərq fəlsəfəsini açmaq münasib idi.

Şərq fəlsəfəsində məni nə cəlb edir? Dərinlik! Hüzur və səadət qoxan dərinlik.

**- Mifik qəhrəmanlar, antik filosoflar, Konfutsi, Dao, Budda, səmavi kitablardakı peyğəmbərlər, filosoflar... Bu nəhəng okeanın içində özünüzə ən yaxın kimi hesab edirsiniz? Və nəyə görə məhz o?**

- Hər halda şərq tipim var. Amma mən anladım ki, kimisə ideal saymaq, səhər-axşam onun adını çəkmək, o adamı özünə kumir etmək mənlik deyil. Və bu qətiyyən o adamlara qarşı hörmətsizlik də deyildir. Onların bir çoxu mənim müəllimlərimdir. Amma mən anladım ki, bu bir növ bütpərəstlikdir. Şərqin bütün müdrikləri bu barədə uyarıblar tələbələrini. Amma həmin adam ölən kimi onu da dərhal bütləşdiriblər. Bütpərəstlik niyə təhlükəlidir? İnsanlar sonra öz orijinallıqlarına inanmırlar. Təsəvvür edirsinizmi, adam ətdən sümükdən ibarət bədəndə əziyyət çəkə-çəkə yaşayır, sonra öləcək hələ. Amma bununla bərabər öz varlığını ikinci sort sayır. Kiməsə "qurban olur" hər gün. Özünü alçaldır. Haqsızlıqdır bu. İnsanın özünə qarşı haqsızlıqdır. Sən kölgəsənsə, ikinci sortsansa, səni Allah niyə yaratsın ki? Sən əvəzolunmazlığınla var olmaq haqqını qazanmısan. İndi isə özünün orijinallığından imtina edir və özünü görməzdən gəlirsən. Yox olursan, əslində.

Bu bir tələdir. Və bu tələyə insanları soxanlar səhər-axşam mütəvazi olmaqdan danışırlar. İyrənirəm açığı təvazökarlıq təbliğ edən adamlardan. İnamsızlıq yayırlar onlar. İnsanları özlərindən küsdürürlər. Guya özünün bənzərsizliyini dərk etmək şeytani iş imiş! Uolt Uitmeni oxuyun. Adam özünü vəsf edir! Nəsimini oxuyun! "Gövhəri laməkan mənəm!" deyir. Özünü dərk edən - özünə heyran olur! Budur ən ali ruhaniyyat.

O ayrı məsələ ki, hər addımın bir də qəza versiyası olur. Təkəbbürlü adamlar da var. Özlərini sevmirlər təkəbbürlülər. Çünki özlərini ancaq özlərində tapırlar, kənarda görə bilmirlər. "Zərrə mənəm, günəş mənəm.." elə-belə demirdi Nəsimi.

**- İslam və Tasavvuf barədə nə düşünürsünüz?**

- İndi bayaqdan elə o dünyanı açmaqla məşğuluq əslində. İslam - Şərq ruhunun gözəl manifestasiyalarından biridir. O ayrı məsələ ki, bütün dinlər institusionallaşdırılarkən zülm aparatına döndərildilər. Amma islamı buna bərabər tutmaq - Rumilərə, İbn Ərəbilərə, Nəsimilərə, Nizamilərə qarşı haqsızlıqdır. Mürəkkəbdir məsələ.

Təsəvvüf isə, mənə görə islam fəlsəfəsinin və ruhani praktikasının bütün dərinliyini və gözəlliyini təmsil edir. Allaha eşq yolu ilə özünü təmizləmək və kamilləşmək pratikasıdır. Dzendən, yoqadan fərqlidir bu yol. Amma nəticə olaraq eynidir. Uzun söhbətdir.

**- Sizcə, bu günün ədəbiyyatını İslam və Tasavvuf necə qidalandıra bilər? Bəzilərinin düşündüyü kimi çağdaş əsərin yaranmasına bu amillər mane olur?**

- Bilirsiz, sufilər o zaman yalnız keçmişə baxsa idilər, yaranmazdılar. Mən sintez və yenilənmə tərəfdarıyam. Keçmişə sədaqətin ən yaxşı yolu müasirləşməkdir. Keçmişi keçmiş kimi yaşatmaq onu öldürməkdir. Çünki o sevdiyimiz adamlar müasir olublar öz zamanlarında. Sözləri ilə, düşüncələri ilə, geyimləri ilə... Amma indi guya onlara sədaqətli olmaq onların zəmanəsini yamsılamaq imiş. Bir də görürsən, adam müasirindir, çuxa geyir, nə bilim sarı geyir... Sanki tarixi filmə çəkiləcək. Nitqi belə arxaik kəlmələrlə doludur. Bu, sədaqət deyil, mənə görə.

Şərqdə bir qorxaqlıq var indi. Yeni heç nə yaratmaq istəmirlər. Yenilikdən, yaradıcılıqdan qorxurlar. Keçmişdən beşəlli yapışıblar. Guya bunlara tapşırıblar ki, amanın günüdür yeni heç nə yaratmayın daha. Ancaq keçmişi rekonstruksiya edin. Qayıdın quldarlığa, hərəmxanalara və s. Ona görə də ümidsizcəsinə uduzur Şərq Qərbə. Qərb aşdı bu qorxunu. Mükafatını da aldı.

Mən əminəm ki, o qorxu aşılsa, Şərq ruhu özünün yeni ifadə formalarını tapacaq. Burda onun qədimliyi də itməyəcək, həm də ruhu yenilənərək yenidən etkili olmağa başlayacaq. Təsəvvüfü təkrarlamaq effekt verməyəcək. Dünya başqa dünyadır indi. İndiki dünyaya refleksiya etməlidir Şərq ruhu.

**- Özünüz bədii nəsə yazmısınız? Şeir, hekayə...**

- Gəncliyimdə yazırdım. Amma sonra Asif Ataya rast gəldim və anladım ki, yazıçı və ya şair olmaqdan daha cəlbedici iş var mənim ruhum üçün. Fəlsəfəyə aludə olmasa idim, yəqin ki, ya şair olacaqdım, ya da yazıçı.

**- Tolstoy haqqında kitab hazırlayacaqdınız... Aqibəti necə oldu? Nə vaxt görəcəyik o kitabı?**

- İdeyadır, hələ durur. Boş zaman və maddiyyat lazımdır kitab yazmaq üçün. Yaşayaq görək, necə olacaq. Hər şey məndən asılı deyil.

**- Fikir vermişəm, siz danışmadan əvvəl barmağınızı alnınıza söykəyib uzun müddət susursuz. Sanki hər hansısa bir ayini icra edirsiniz. Bunun bir mistik açıqlaması varmı? Hər dəfəmi belə olur?**

- Aha, fikir vermisiz, deməli. Pranayama edirəm. Yoqanın nəfəs texnikasıdır. Başqalarını bilmirəm, çox tez itirə bilirəm tarazlığımı. Həssaslığımdandır. Kiminsə baxışı, ya sözü, yolda gələrkən gördüyüm adamlar təsirlərini buraxırlar psixikamda. Hüzurum əksilir. Pranayama yenidən təmizləyir, sakitləşdirir və yaradıcı əhvala qaytarır məni. Zaman olursa, meditasiya da edirəm, sakitləşmək üçün. Olmayanda, pranayama yetir.

Bu yaşıma bir şey öyrəndim. Nə baş verir versin, sakitləşmək və sonra gerçəkliyə baxmaq lazımdır. Tarazlığımızı itirəndə, biz özümüz olmuruq. Tarazlığımızı itirən kimi bizi yıxıb sürümək də asan olur.

**- Sizcə, filosof doğurdan da ötgün olmalıdır?**

- Ölümlə yarışmaqdır filosofluq. Yəqin ki.

**Söhbətləşdi:**
**Ayxan Ayvaz**